# ECO-nun Xankəndi Zirvəsi

## Ortaq kökdən güclü gələcəyə

**Azərbaycan qədim İpək Yolunun əsas seqmenti kimi regionun iqtisadi mərkəzinə çevrilmək yolunda əmin addımlarla irəliləyir. İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində qurulan çoxşaxəli əlaqələr isə ölkəmizin Cənubi Qafqaz miqyasında, həm də beynəlxalq iqtisadi sistemdə artan nüfuzunu bariz şəkildə göstərir.**

Azərbaycan bu platformada təşəbbüskar, yönverici və strateji tərəfdaş rolunda çıxış edir. Ticarətdən energetikaya, nəqliyyatdan turizmə, kənd təsərrüfatından ekologiyaya qədər geniş spektrli əməkdaşlıq sahələrində ECO-nun üzv dövlətləri ilə dinamik münasibətlər qurulub. Bu fəallıq  iqtisadi göstəricilərlə yanaşı, regionda sabitliyin və tərəqqinin təmin olunmasında Azərbaycanın üzərinə götürdüyü məsuliyyətin də göstəricisidir. ECO platforması üzərindən formalaşan əməkdaşlıq ruhu Azərbaycanın qlobal iqtisadi inteqrasiyasına yeni nəfəs, yeni imkanlar gətirir. Bu isə onu deməyə əsas verir ki, ölkəmiz təkcə enerji ixrac edən dövlət deyil, həm də əməkdaşlıqla güc qazanan, bölgədə nüfuzlu aktordur.

**(davamı 10-cu səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Bölgənin iqtisadi ritmini müəyyən edən qurumlardan biri kimi İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) zamanın süzgəcindən keçmiş, təməli isə 1964-cü ildə İran, Pakistan və Türkiyə tərəfindən qoyulmuş əməkdaşlıq platformasıdır. O dövrdə "İnkişaf üçün Regional Əməkdaşlıq" (İRƏ) adı ilə yaradılan bu birlik 1985-ci ildən etibarən daha geniş miqyasla İqtisadi Əməkdaşlıq Təşkilatı adı ilə inkişaf yoluna çıxdı. Mənzil-qərargahı Tehranda yerləşən ECO artıq 10 üzv dövləti birləşdirir: Azərbaycan, İran, Türkiyə, Pakistan, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan. Bu ölkələrin ortaq cəhəti təkcə coğrafi yaxınlıq deyil, ortaq tarix, iqtisadi maraqlar və gələcək baxışlardır. 550 milyon nəfərlik əhalisi ilə ECO məkanı qlobal miqyasda böyük istehlakçı və əməkdaşlıq potensialına malikdir. Bu nəhəng bazarın illik ticarət dövriyyəsi artıq 76 milyard dollara yaxınlaşır və bu rəqəm getdikcə yüksəlməkdədir.

Xüsusi vurğulanmalıdır ki, İqtisadi Əməkdaşlıq Təşkilatı mədəni körpülərin salınmasına, elmi dialoqun genişlənməsinə və humanitar sahədə ortaq dəyərlərin paylaşılmasına yol açır. Azərbaycan ECO ailəsində həm də ortaq tarixə, mədəni kimliyə və inkişaf arzularına sahib olan xalqların birliyinə ruh verən ölkədir. Bu əməkdaşlıq sayəsində ölkəmiz regional inteqrasiyanın fəal iştirakçısına çevrilir, ortaq təşəbbüslərlə sülhə, sabitliyə və davamlı inkişafa xidmət edən layihələrin ön sıralarında yer alır.

Ölkəmiz aktiv fəaliyyətlə ECO-nun daxilində əməkdaşlığı dərinləşdirir. Bakı-Tbilisi-Qars dəmir yolu, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Cənub Qaz Dəhlizi qarşılıqlı əməkdaşlığın təminatçısı kimi ECO-nun nüfuzunu artırır. Bütün bunlar Azərbaycanın təşkilatdakı imicinin aydın təzahürüdür. ECO-ya üzv ölkələrin Avropa ilə Çin arasında yerləşməsi təşkilatın geoiqtisadi əhəmiyyətini qat-qat artırır. Strateji mövqe qarşılıqlı fəaliyyətə, ortaq maraqlara və yeni imkanlara geniş qapılar açır. Və bu məkanın mərkəzində dayanan ölkələrdən biri də Azərbaycandır və təşkilatın məqsəd və prinsiplərinə daim sadiq qalıb.

İqtisadi və siyasi maraqların kəsişdiyi nöqtədə yerləşən ECO ölkələri üçün əməkdaşlıq ortaq gələcək naminə strateji seçimdir. Əməkdaşlığın mərkəzində isə etibarlı tərəfdaş olan Azərbaycan dayanır. Ölkəmiz təşkilat daxilində bir çox sahələrdə fəal təşəbbüslərlə çıxış edərək regionun inteqrasiya səylərinə təkan verən aparıcı qüvvəyə çevrilib. Təsadüfi deyil ki, 2006 və 2012-ci illərdə paytaxt Bakının ev sahibliyi etdiyi ECO Zirvə toplantıları bunu əyani şəkildə sübut edir. Bu mühüm tədbirlərdə qəbul edilən sənədlər üzv ölkələr arasında sosial-iqtisadi və siyasi əməkdaşlığın əsas konturlarını müəyyənləşdirmiş, regional münasibətlərin gələcək xəritəsini cızmışdır. 2023-cü il oktyabrın 10-da Şuşa şəhərində keçirilən ECO Nazirlər Şurasının 27-ci iclası Azərbaycanın dirçələn bölgələrinə verilən beynəlxalq dəstəyin rəmzinə çevrildi. Şuşanın 2026-cı il üçün ECO-nun turizm paytaxtı elan olunması isə şəhərin beynəlxalq əməkdaşlıq mərkəzinə çevrildiyini göstərir.

İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü ölkəmizin qurumdakı artan rolunun və nüfuzunun bariz təzahürüdür. Mühüm tədbirin məhz Azərbaycanda keçirilməsi həm də dövlətimizin təşəbbüskar və etibarlı tərəfdaş kimi qəbul olunmasının beynəlxalq təsdiqidir. Zirvə görüşü bir daha göstərir ki, Azərbaycan təkcə iqtisadi proseslərin iştirakçısı deyil, onları yönəldən, yeni formatlar təklif edən və əməkdaşlığa dəyər qatan bir mərkəzdir. Bu mühüm hadisə həm regional inteqrasiyanın dərinləşməsinə, həm də ölkəmizin qlobal miqyasda siyasi və iqtisadi mövqeyinin daha da möhkəmlənməsinə təkan verəcək. Azərbaycan bu platformada iştirak etməklə yeni ideyalar, real layihələr və gələcəyə hesablanmış əməkdaşlıq modelləri ilə çıxış edir. Zirvə çərçivəsində təklif olunacaq yeni əməkdaşlıq mexanizmləri ECO məkanında qarşılıqlı fəaliyyətə yeni nəfəs, daha uğurlu yol xəritəsi gətirəcək. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycanın ECO çərçivəsində apardığı siyasət düşünülmüş, planlı və strateji hədəflərə hesablanmışdır. Əlaqələrin inkişafı həm ölkəmizin beynəlxalq nüfuzunu artırır, həm də iqtisadi və geosiyasi baxımdan uzunmüddətli maraqlarımıza xidmət edir. Azərbaycan bu gün regionun gələcəyini dizayn edən güclü bir dövlətdir.

Qeyd edək ki, Azərbaycanla İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələr arasında iqtisadi münasibətlər getdikcə dərinləşir, ticarət körpüləri daha da möhkəmlənir. Cari ilin yanvar-may aylarında bu əlaqələrin miqyası əhəmiyyətli dərəcədə genişlənərək 3 milyard 547 milyon ABŞ dollarına çatıb. 2024-cü ilin eyni dövrü ilə müqayisədə ticarət dövriyyəsində 328 milyon dollarlıq artım - yəni 10,2 faiz yüksəliş müşahidə olunub. Ötən ilin eyni dövründə bu rəqəm 3 milyard 219 milyon dollar təşkil edirdi. Builki artım isə Azərbaycanın İƏT məkanında iqtisadi əlaqələrə verdiyi töhfənin daha da gücləndiyini, qarşılıqlı maraq və inamın artdığını göstərir. Azərbaycan bu yüksəlişlə bir daha sübut edir ki, iqtisadi tərəfdaşlıq sahəsində regional liderlik missiyasını uğurla yerinə yetirir və İƏT çərçivəsində əməkdaşlıq gündən-günə daha da məhsuldar xarakter alır. Təşkilatın iqtisadi cazibəsi isə yalnız daxili ticarətlə məhdudlaşmır. Son illər birbaşa xarici investisiyaların ECO ölkələrinə axını 20 faiz artaraq 25,7 milyard dollara çatıb. Bu, dünya biznes dairələrinin də bu məkanın perspektivlərinə artan marağının açıq göstəricisidir.

Ümumiyyətlə, ECO yeni iqtisadi düzənin formalaşdığı coğrafiyada həm strateji əlaqələrin, həm də davamlı inkişafın möhkəm dayağıdır. Azərbaycanın bu güclü platformada oynadığı rol isə gündən-günə daha da dərinləşir.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika .- 2025.- 2 iyul (№ 132).- S.1;10.